Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının
Elxan Nuriyevin Polşada saxlanılmasına etiraz
BƏYANATI

Azərbaycanda Xalq hərəkatının fəal iştirakçısı, Xalq Cəbhəsinin üzvü, prezident Əbülfəz Elçibəyin dövründə Qubadlı rayon icra hakimiyyətinin başçısı, Birinci Qarabağ müharibəsində Qubadlının qorunmasında, ölkənin digər sərhəd rayonları ilə mərkəz arasında müntəzəm əlaqələr yaradaraq bölgənin müdafiəsinin təmin etməsində müstəsna xidmətləri ilə seçilən, sonralar Ukraynaya köçərək həmin ölkənin vətəndaşlığını qəbul etmiş Elxan Nuriyev Azərbaycan hakimiyyət orqanları tərəfindən qəsdən adam öldürmə və vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham olunaraq beynəlxalq axtarışa verildiyindən oktyabrın 2-də Polşada saxlanlıb.
O Azərbaycanı tərk edəndən sonra Ukrayna vətəndaşı olaraq dəfələrlə xaricdə olub, Türkiyəyə və Polşaya sərbəst səfərlər etsə də, ölkələr arasında sərhəd buraxılış məntəqələrində heç vaxt problemlə qarşılaşmayıb. Onun Polşaya son səfərinin məqsədi Ukraynada Rusiyanın cinayətlərini pisləyən beynəlxalq tribunalın yaradılması və hazırlanması ilə bağlı Avropa ölkələri ilə aparılacaq məsləhətləşmələrdə iştirak olub.
Hazırda Ukrayna vətəndaşı olan Elxan Nuriyev Kiyevdə vətənpərvərlik mühitində ictimai sektorda və eyni zamanda siyasi dairələrdə tanınmış simadır, o Ukrayna Zabitlər İttifaqının fəal üzvü, mərkəzi nəzarət-təftiş komitəsinin sədridir.
Onun mövqeyi və fəaliyyəti Ukraynanın və keçmiş SSRİ-nin digər ölkələrinin vətənpərvər dairələrində yaxşı məlumdur. Elxan Nuriyev hər bir xalqın azad, suveren və demokratik inkişaf hüququnun qatı tərəfdarı, bu hüquqların Putin Rusiyası tərəfindən əsarət altına alınmasının əleyhdarıdır.
Elxan Nuriyev 2015-ci ildən Anti-Putin İnformasiya Cəbhəsinin təsisçisi və əlaqələndiricisi, Rusiyanın hərbi cinayətləri haqqında həqiqətləri yaymaq üçün informasiya resurslarının və proqramların yaradılmasının təşəbbüskarıdır. Elxan Nuriyev ictimai çıxışları və informasiya cəbhəsində Putinin işğalçılıq siyasəyinə qarşı mübarizəsi ilə tanınan, çoxminlik auditoriyaya malik jurnalist və ekspertdir.
Rusiyanın Ukraynaya hərbi təcavüzünün ilk günlərindən Elxan Nuriyev Putin Rusiyasına qarşı müqavimət kürsüsünə çevrilərək müharibə dövründə Azərbaycanın azad mətbuatında ən çox istinad edilən mənbədir. O, mütəmadi olaraq BİZ TV, Kanal 13 və digər müstəqil YouTube kanallarında hərbi şərhçi kimi çıxış edərək Azərbaycan cəmiyyətini düzgün informasiyalarla məlumatlandırıb. Azərbaycan tamaşaçısı Rusiyanın Ukraynaya müdaxiləsi ilə bağlı ən doğru xəbəri onun internet üzərindən birbaşa və canlı bağlantılarından əldə edib.
Elxan Nuriyevin Azərbaycanın rəsmi hakimiyyətinin göstərişi ilə Polşada saxlanması siyasi təqibdən başqa bir şey deyil, çünki Elxan Nuriyev Əliyevlər rejiminə müxalif Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasının siyasi kursunu dəstəkləyirdi.
ADR Partiyası hesab edir ki, ictimai xadim və jurnalist Elxan Nuriyevə qarşı irəli sürülmüş ittham saxtadır, onun şərlənərək saxlanılması Putin və Əliyev hakimiyyətlərinə qarşı fəal siyasi mövqeyi, Rusiyanın Ukraynaya təcavüzünə, avtoritar rejimlərə qarşı tənqidi münasibəti və informasiya fəaliyyəti ilə əlaqədardır. Odur ki, ADR Partiyası inanır ki, ədalətli məhkəmə vasitəsilə Elxan Nuriyevin azad olunaraq sərbəst buraxılmasını tələb edir.
Baki şəhəri, 10 oktyabr 2022-ci il